


6

**“Zəngilan məcburi köçkünlərin ilk geri** qayıdacağı rayon olacaq”



13

**Rus səyyah və jurnalist MDB-nin yay səyahətləri üçün ən yaxşı 5 ölkəsinin adını çəkdi**

Səs

№ 081 (6522) **11 may** 2022-ci il. **Qiymәti 60 qәpik**



## “Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın ruhu şaddır”

3

# Xarıbülbül festivalı: Zəfər+Zəfər




8



**“Makedoniya Türk Demokratik Partiyası** Yeni Azərbaycan Partiyası **ilə əlaqələrin genişlənməsinə böyük önəm verir”**

5



**Əhməd İsmayılov hücuma məruz qalan jurnalistlə görüşüb**

7

## Qazaxın 7 kəndi və Kərki nə vaxt qaytarılacaq?



## Ronaldo şərtini açıqladı: yalnız bu halda gedəcək



16



## Paytaxt Bakımızda “Formula-1” yenidən sürət götürəcək

12

# Ümummilli lider Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq!

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər*

**Mayın 10-da - xalqımızın xilaskar oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin xatirəsini ehtiramla anıb. Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də ulu öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyubar.**



Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

Xalqımızın ümummilli lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz işləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Ulu Öndər Azərbaycanı dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik, dünya siyasətinin nəhənglərindən birinə çevirib. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıb. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, o, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Onun Azərbaycana rəhbərlik illəri tariximizdə milli intibah dövrü kimi əbədiləşib.







Dahi Heydər Əliyev ona görə Ümummilli Lidərə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. "Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir", - deyən ulu öndər Heydər Əliyev bu fikri dəfələrlə öz fəaliyyətində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrün əsas ideoloji fəlsəfəsi isə azərbaycançılıqdır.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz uğurlara imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin girdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin arzusunu, vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi. Ulu Öndərin yaratdığı və inkişaf etdirdiyi Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın mədəniyyət beşiyi olan Şuşada qürurla dalğalanmağa başladı. Bununla da "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" deyən Ulu Öndərin ən böyük arzularından biri də həyata keçdi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Xalqımız böyük dövlət xadimi, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbənin doğurduğu sevinc hissi ilə qeyd edir.

# “Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın ruhu şaddır”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna və Şuşa şəhərinə səfər ediblər*

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleks barədə məlumat verib.**

Bildirildi ki, Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya təcrübələri, idman binaları və meydançası yaradılacaq. İşğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri bu yerlərə yenidən həyat verir, ermənilərin ekoloji sistemə vurduqları zərərin nəticələri aradan qaldırılır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuliyə səfərləri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkiblər. Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev dövlətimizin başçısına və birinci xanıma parkda görüləcək işlər barədə məlumat verib. Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində də iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva



### Rəsmi xronika

Prezident İlham Əliyev 2022 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.



### "2003-cü ildə Azərbaycan xalqı mənə etimad göstərərək bir daha Ulu Öndərin siyasətinə sədaqətini nümayiş etdirdi"



### "Biz doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq"

Şuşa şəhərində də səfərdə olublar. Dövlətimizin başçısına və birinci xanıma Şuşadakı inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri barədə məlumat verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şirin su hamamında, tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın evində, Mehmandarovlar malikanə kompleksində aparılacaq bərpa işləri ilə tanış olublar. Dövlətimizin başçısı və birinci xanım "Shusha Boutique Hotel"də və Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə də tanış olublar. Sonra Prezident İlham Əliyev Şuşa şəhərində "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib. Daha sonra dövlətimizin başçısı müraciət edib:

"Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür. Bu gün Füzuli və Şuşa şəhərlərinə səfər etmişəm. Keçən il mayın 10-da Naxçıvanda idim. Bu il mayın 10-da isə Qarabağdayam, işğaldan azad edilmiş Qarabağda.

Heydər Əliyev Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir. Xalqımız üçün ən çətin anlarda xalqın yanında olmuşdur, Azərbaycan xalqını böyük bəlalardan, faciələrdən xilas etmişdir. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. O, öz həyatını xalqa həsr etmişdir və onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. O, öz fəaliyyəti ilə dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu.

Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik.



2003-cü ildə Azərbaycan xalqı ilk dəfə mənə etimad göstərərək bir daha Ulu Öndərin siyasətinə sədaqətini nümayiş etdirdi. Mən isə öz növbəmdə demişdim ki, əgər xalq etimad göstərərsə, mən prezident kimi Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyəm. Buna and içmişdim. Xoşbəxt adamam ki, bu anda sadiq oldum və bu gün Qarabağ azaddır. Bu gün Qarabağda və Zəngəzurda Azərbaycan bayrağı dalğalanır. Arxamdakı inzibati binanın damında Şuşanın alınmasından sonra Azərbaycan bayrağı qaldırılmışdır və binanın damından müzəffər Azərbaycan əsgərləri Şuşanın azad olunması ilə bağlı mənə raport vermişlər. Bu gün mayın 10-da mən yenidən Ulu Öndərin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edərək Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm.



Bu gün Qarabağ dirçəlir. Bu gün Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etmişəm. Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır. Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik.

Bu gün mayın 10-da mən mütləq burada olmalı idim. Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin hazırkı mərhələsi ilə də tanış olublar.

# Prezident Administrasiyasının şöbə müdiri Şimali Makedoniyanın Türk Demokratik Partiyasının rəhbərliyi ilə görüşüb

**Mayın 10-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Şimali Makedoniyanın Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Parlamentinin deputatı, Şimali Makedoniya - Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Beycan İlyas və həmin Partiyanın xarici əlaqələr üzrə sədr müavini, Şimali Makedoniyanın əmək və sosial siyasət nazirinin müavini Ənvər Hüseyn ilə görüşüb.**

Görüşdə Ədalət Vəliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunmuş tarixi Qələbə nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda irimiqyaslı və sürətli quruculuq işlərinin həyata keçirilməsi ilə regionda tamamilə yeni inkişaf mərhələsinin başlandığını qonaqların diqqətinə çatdırıb. O, dövlətimizin başçısının ədalətli beynəlxalq sülh və təhlükəsizlik naminə fəaliyyətini, habelə quruculuq əzmini vurğulayaraq beynəlxalq ictimaiyyətin bu prosesdə yaxından iştirakının və dəstəyinin vacibliyini qeyd edib. Şöbə müdiri bildirib



ki, regionda təcavüzkarlığın yenidən baş qaldırmaması və təqsirkarların daim beynəlxalq qınaq hədəfində olması üçün dünya ictimaiyyətinin inamlı səy göstərməsi zəruridir.

Ədalət Vəliyev Prezident İlham Əliyevin apardığı sistemli və çoxşaxəli inzibati-siyasi islahatların nəticələrindən danışaraq ölkədə iqtidar-müxalifət dialoqunun, yeni siyasi konfiqurasiyanın qurulduğunu deyib. Eyni zamanda, dövlətimizin başçısının sosial siyasətinin əsas məqamları, xüsusilə koronavirus pandemiyası ilə mübarizə sahəsində Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə həyata keçirilən kompleks məqsədyönlü tədbirlər barədə məlumat verilib. Görüşdə, həmçinin regionda yaranmış yeni reallıq fonunda ölkələrarası siyasi müstəvidə ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin dərinləşməsinin, müxtəlif siyasi platformalar vasitəsilə obyektiv məlumatların mübadiləsinin və geniş beynəlxalq auditoriyaya ötürülməsinin mühüm əhəmiyyət kəsb etdiyi, Azərbaycan Respublikasının xalqların milli maraqlarına cavab verən və dövlətlərin inkişafına, ədalətli sülhə xidmət edən bütün təşəbbüsləri dəstəklədiyi bildirilib.

Qonaqlar Şimali Makedoniyanın Türk Demokratik Partiyasının Yeni Azərbaycan Partiyası ilə qarşılıqlı sıx əməkdaşlıq əlaqələri qurmaq niyyətində olduğunu qeyd edərək, bu cür əlaqələrin reallaşdırılmasının faydalı olacağına, iki ölkə və xalq arasında dostluq münasibətlərini daha yüksək pilləyə yüksəldəcəyinə əminlik ifadə ediblər.

Daha sonra əsas əməkdaşlıq istiqamətləri üzrə icra oluna biləcək layihələr ətrafında fikir mübadiləsi aparılıb, imzalanacaq partiyalararası əməkdaşlıq memorandumunun əsas aspektləri müzakirə olunub. Etibarlı əməkdaşlıq və tərəfdaşlıq, qarşılıqlı hörmət və bərabərlik prinsiplərinə əsaslanan memorandum parlamentlərarası peşəkar fəaliyyətin inkişafı, partiyalararası təmasların fəallaşdırılması, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək, habelə gənclər siyasəti, elm və digər sahələrdə konstruktiv əməkdaşlığı nəzərdə tutur. Görüşdə, həmçinin Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iştirak edib.

## Tahir Budaqov:

## “Ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycan xalqına həsr edib”

“Bu gün Azərbaycan xalqının tarixində əlamətdar bir gündür. Biz bu gün ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünü qeyd edirik”. Bu fikirləri Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.



Tahir Budaqov bildirib ki, ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycan xalqına həsr edib. Qədirbilən xalqımız da Ümummilli Liderimizin əziz xatirəsini daim uca tutur. ”Ulu öndər Heydər Əliyev dövlətimiz və xalqımız üçün müstəsna xidmətlər göstərib, müasir müstəqil Azərbaycan dövlətini qurub. Bu gün vətəndaşlarımız Azərbaycanın dünyada söz və nüfuz sahibi olan ölkəyə çevrilməsi, ən əsası torpaqlarımızın işğaldan azad olunması istiqamətində görülən işlərin təməlini qoyan bu dahi insana ehtiram əlaməti olaraq Fəxri xiyabana axın edir, onun əziz xatirəsini uca tutaraq hörmətlə yad edirlər”, - deyə YAP sədrinin müavini vurğulayıb.





# Müstəqil Azərbaycanın memarı və qurucusu, əbədiyaşar Lider

### Yeni Azərbaycan Partiyasının nümayəndələri və Makedoniya Türk Demokratik Partiyasının nümayəndə heyəti Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

**Mayın 10-da müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri və ölkəmizdə səfərdə olan Makedoniya Türk Demokratik Partiyasının nümayəndə heyəti Fəxri xiyabana gələrək Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.**

Daha sonra Şəhidlər xiyabanına gələn Yeni Azərbaycan Partiyasının üzvləri və Makedoniya Türk Demokratik Partiyasının nümayəndə heyəti tərəfindən Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram ifadə edilib, məzarları üzərinə güllər düzülüb, ”Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub. Həmçinin, ”Türk şəhidliyi” abidəsi də ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.










# "Makedoniya Türk Demokratik Partiyası Yeni Azərbaycan Partiyası ilə əlaqələrin genişlənməsinə böyük önəm verir"

**Mayın 10-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında Yeni Azərbaycan Partiyası və Makedoniya Türk Demokratik Partiyası arasında Əməkdaşlıq Memorandumunun imzalanması mərasimi keçirilib.**

Əməkdaşlıq Memorandumunu Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas imzalayıblar.

İmzalanma mərasimindən sonra mətbuat konfransı keçirilib. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qonaqları bir daha salamlayıb və partiyalar arasında imzalanmış sənədin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Yeni Azərbaycan Partiyasının fəaliyyətinin əsas istiqamətlərindən biri beynəlxalq əlaqələrin inkişaf etdirilməsidir. Bu baxımdan, Makedoniya Türk Demokratik Partiyasının nümayəndə heyətinin ölkəmizə səfəri böyük önəm kəsb edir. YAP Sədrinin müavini qeyd edib ki, partiyalar arasında Əməkdaşlıq Memorandumunun imzalanması müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə təsadüf edir: "Bu gün biz birlikdə Fəxri xiyabana gedərək ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdik, Azərbaycan xalqının, bütövlükdə türk dünyasının böyük oğlu, dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramımızı bildirdik". Vurğulanıb ki, Əməkdaşlıq Memorandumu qarşılıqlı münasibətlərin, gələcək əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirir. Əminliklə söyləmək olar ki, bu sənədin imzalanması ilə nəinki partiyalarımız, ümumilikdə, iki dövlət arasında münasibətlərin keyfiyyətcə yeni müstəviyə çıxması üçün imkanlar yaranır. "Yeni Azərbaycan Partiyası olaraq Makedoniya Türk Demokratik Partiyasının Şimali Makedoniyanın ictimai-siyasi həyatında, siyasi proseslərdə fəal iştirakını yüksək qiymətləndiririk. Bu fəallığın nəticəsidir ki, bu partiyanın nümayəndələri həmin ölkənin hökumətində və parlamentində təmsil olunurlar"- deyən Tahir Budaqov gələcəkdə partiyalar arasında müxtəlif məsələlərlə bağlı təcrübə mübadiləsinin aparılması, qarşılıqlı səfərlərin təşkili, o cümlədən hər iki partiyanın gəncləri arasında əməkdaşlıq əlaqələrinin qurulmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb.












"Yaxın vaxtlarda YAP Gənclər Birliyinin nümayəndə heyəti Türkiyəyə səfər edərək Gənclər Festivalında iştirak edəcək. Şimali Makedoniya Türk Demokratik Partiyasının gəncləri də həmin tədbirdə iştirak edəcək. Bu da iki partiyanın gəncləri arasında əlaqələrin qurulması üçün gözəl bir platformadır. Mayın 11-də Milli Məclisdə Azərbaycan-Şimali Makedoniya Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri arasında görüş də keçiriləcək. Şimali Makedoniya ilə əlaqələrin inkişafı YAP-ın Avropada əməkdaşlıq əlaqələrinin genişlənməsinə də töhfə verə bilər. Biz gələcəkdə Orta Asiya türk dövlətlərinin siyasi partiyaları ilə əlaqələrin qurulması üçün birgə addımlar da atmağı nəzərdə tuturuq", - deyə YAP Sədrinin müavini vurğulayıb.

Öz növbəsində Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə edib: "Bu gün səfərimiz Türk dünyasının böyük dövlət adamı, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının ildönümünə təsadüf edir. Biz Heydər Əliyevin əziz xatirəsinə hörmət və ehtiramımızı bildiririk". O, Azərbaycanın sürətlə inkişaf etdiyinin şahidi olduğunu deyərək bildirib ki, dost və qardaş bir xalqın qazandığı nailiyyətlər bizi çox sevindirir. Beycan İlyas yeni mərhələdə güclənən Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin daha da güclənməsində maraqlı olduqlarını vurğulayıb.

Qonaq Yeni Azərbaycan Partiyası ilə əlaqələrin genişlənməsinə böyük önəm verdiyini diqqətə çatdırıb. Onun fikrincə, Əməkdaşlıq Memorandumunun imzalanması qarşılıqlı əlaqələrin inkişafına öz töhfəsini verəcək: "Azərbaycan bizim üçün qardaş bir ölkədir. Azərbaycanı həm Balkanlarda, həm də Avropada təmsil etmək üçün YAP-la əməkdaşlıq etmək təklifimiz müsbət qarşılandı".

Beycan İlyas İkinci Qarabağ müharibəsinin Azərbaycanın gücünü bütün dünyaya göstərdiyini vurğulayıb: "Bu zəfər münasibətilə Azərbaycan xalqını təbrik edirik. Əgər İkinci Qarabağ müharibəsi dövründə Şimali Makedoniya parlamentinə Ermənistanın lehinə bir qərar layihəsi gəlsəydi, biz buna qarşı çıxardıq. Allahdan şəhidlərə rəhmət, qazilərə şəfalar diləyirik. Qardaş Azərbaycana da dünyadakı bu yüksəlişini davam etdirməyi arzulayırıq. Biz bir NATO, Avropa ölkəsi olaraq bundan sonra da Azərbaycanı dəstəkləyəcəyik. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə də partiyalarımız arasında Əməkdaşlıq Memorandumunun imzalanmasını dəstəklədiyi üçün təşəkkür edirik". Şimali Makedoniya Türk Demokratik Partiyasının sədri onu da qeyd edib ki, Azərbaycan və Şimali Makedoniya türkləri qardaşdırlar. "Bu qardaşlığın daha da güclənməsi üçün əlimizdən gələni etməliyik".

Sonra jurnalistlərin suallarını cavablandırılıb.

# Makedoniya Türk Demokratik Partiyası Yeni Azərbaycan Partiyası ilə əlaqələrin gücləndirilməsində maraqlıdır

*YAP Mərkəzi Aparatında Makedoniya Türk Demokratik Partiyasının nümayəndə heyəti ilə görüş keçirilib*

**Mayın 10-da Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında ölkəmizdə səfərdə olan Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas və partiyanın sədr müavini, Əmək və Sosial Siyasət nazirinin müavini Ənvər Hüseynlə görüş keçirilib.**

Qonaqları salamlayan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin inkişafı üçün potensialın olduğunu bildirib. YAP Sədrinin müavini diqqətə çatdırıb ki, xüsusilə, iqtisadi-ticari, mədəni və turizm sahələrində əlaqələrin daha da genişləndirilməsi üçün geniş imkanlar mövcuddur.



Görüşdə eyni zamanda, Azərbaycanın inkişafında yeni mərhələnin başlandığı, 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü təmin etdiyi vurğulanıb. Qarşıda dayanan əsas vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin həyata keçirilməsidir. Bu prosesdə dost ölkələrin şirkətləri də iştirak edir.





Tahir Budaqov deyib ki, Yeni Azərbaycan Partiyası ilə Makedoniya Türk Demokratik Partiyası arasında əlaqələrin inkişafı üçün yaxşı imkanlar var və bu ölkədəki türk toplumunun ictimai-siyasi fəallığı da məmnunluq doğurur. Bu səfər qarşılıqlı əlaqələrin genişlənməsinə öz töhfəsini verəcək.

Görüşdə iştirak edən YAP Sədrinin müavini, Baş nazirin müavini Əli Əhmədov da Azərbaycan-Şimali Makedoniya əlaqələri, bu əlaqələrin inkişafında partiyaların rolu haqqında fikirlərini bildirib.

Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas Azərbaycana səfər etməkdən məmnunluğu bildirib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətlə inkişaf etdiyini və ölkənin uğurlarına sevindiyini söyləyib. Bildirilib ki, Azərbaycanla Makedoniya dost ölkələrdir. Beycan İlyas Makedoniya Türk Demokratik Partiyasının Yeni Azərbaycan Partiyası ilə əlaqələrin gücləndirilməsində maraqlı olduğunu bildirib. Bu səfərin də məhz iki partiya arasında mövcud əlaqələrin və dostluq münasibətlərinin daha da gücləndirilməsi məqsədi daşıdığını diqqətə çatdırıb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb. Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim edilib.




## “Xarıbülbül Şuşanın mədəniyyətini və Qarabağı təmsil edir”

“Xarıbülbül” festivalının keçirilməsi artıq bir ənənə halını alıb. Cənab Prezidentin və Mehriban xanımın burada iştirakı da bu festivala xüsusi qiymət verir”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Nizami Cəfərov bildirib.

Onun sözlərinə görə, bunu yalnız Azərbaycan miqyasında deyil, ümumən dünya miqyasında çox nüfuzlu mədəni, siyasi bir hadisə kimi dərk etməyə kömək edir: ”Əlbəttə nə qədər ki, Şuşa düşmən işğalında idi Xarıbülbül bizim üçün kədərin, qüssənin simvolu idi. Amma Şuşa azad olunduqdan sonra Xarıbülbül bizim üçün eyni zamanda mədəniyyətimizin, incəsənətimizin, musqimizin azadlığı və müstəqilliyi simvoluna çevrildi.

Ümumiyyətlə, Xarıbülbül təbii ki, güldür. Amma bununla yanaşı o, eyni zamanda Şuşanı təmsil edir. Xarıbülbül Şuşanın mədəniyyətini və Qarabağı təmsil edir. Odur ki, Qarabağın hər dəfə mədəniyyətini, incəsənətini daha da dərindən dərk etmək, dünyaya tanıtmaq üçün bu simvoldan istifadə olunması bir xalq olaraq böyük bir kəşfimiz kimi qəbul edilə bilər. Düzdür bunu təbiət bizə verib. Təbiət xalqa, insanlara, cəmiyyətə bir çox şeylər bəxş edə bilər. Amma o cəmiyyət də onu gərək tanısın, dərk etsin. Onunla öz varlığını, mövcudluğunu, istedadını, ruhunun dərinliyini tanısın. Bu baxımdan Xarıbülbül həm də bizim bir əsərimizdir. Bu tək təbiət hadisəsi deyil, təbiəti dərindən dərk edənlərin incəsənət əsəridir. Festivalda böyük sənətkarlar iştirak edəcək. Keçən dəfə də hər kəs bu böyük günün şahidi oldu.

Cənab Prezident ”Şuşa azaddır” dedikdə tək bir şəhərin, məkanın azad olunmasını nəzərdə tutmurdu. Bu həm də o, məkanın bizə verdiyi mənəviyyatın azad olunmasıdır. Bu xüsussiyyətlərə görə ”Xarıbülbül” festivalının keçirilməsi ilə fəxr edirik. Onun da önündə tək hərbi qələbələrin yox, mənəvi, ruhi qələbələrin müəllifləri cənab Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva gedirlər”.

*Səbinə Hüseynli*

## “Zəngilan məcburi köçkünlərin ilk geri qayıdacağı rayon olacaq”

“Prezident İlham Əliyev mayın 4-də Zəngilan rayonunda xüsusi nümayəndənin təyin olunması prosesində rayonla bağlı öz fikirlərini bildirdi. Prezident işğal müddətində və işğaldan sonrakı dönəmdə rayonda nəzərdə tutulan məsələləri gündəmə gətirdi. Əsas işğal müddətində Zəngilanda bir-iki binanı çıxmaq şərtilə hər şeyin yerlə-yeksan olduğunu qeyd etdi. Bir-iki binada da işğalçı erməni əsgərləri yaşayırdılar deyə bu binalara toxunulmamışdı.”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.




Onun sözlərinə görə, bundan başqa erməni vandalizminin bariz nümunəsi kimi Bəsitçay Dövlət Təbiət Qoruğunun məhv olunmasıdır: ”Ermənilər burada 10 min hektarlarla meşə sahəsini məhv ediblər. Bu təkcə Zəngilanda yox, Laçın, Qubadlı, Kəlbəcərdə də baş verib.

Bundan başqa ermənilər Vejnəli qızıl yatağını da istismar ediblər. Həm də kimyəvi tullantılar və zir-zibillər Oxçuçaya tökülüb. Cənab Prezident bu məsələni qeyd edərək bildirdi ki, Azərbaycan tərəfindən bütün dağıdılmış evlərin, sosial binaların həm video, həm də fotoçəkilişi aparılır. Onların pasportlaşdırılması həyata keçirilir, dəymiş ziyan hesablanır və bütün bunların sonunda Azərbaycan dövləti həmin dəymiş ziyanın ödənilməsi üçün beynəlxalq məhkəməyə müraciət edəcək”.

Cümşüd Nuriyev sözlərinə belə davam edib: ”Cənab Prezident həmçinin qeyd etdi ki, Zəngilan məcburi köçkünlərin ilk geri qayıdacağı rayon olacaq. Bunun üçün rayon ərazisində, Ağalı kənddə yeni ”Ağıllı kənd” layihəsi həyata keçirilir və tezliklə bu layihə başa çatdırılacaq. Layihədə yalnız insanların yaşayışı üçün deyil, həm də onların işləməsi üçün hər cür şərait yaradılmalıdır. Burada əkinçilik və heyvandarlıqla məşğul olmaq üçün hər şey olacaq. Həmçinin, Zəngilanın digər kəndlərinin də baş planı hazırlanır. İşğaldan azad edilmiş bütün torpaqlarda bərpa işləri baş plan əsasında həyata keçirilir. Zəngilanda məscidin bərpasını Heydər Əliyev Fondu maliyyələşdirir. Çünki məscidin cəmi bir divarı sağ qalmışdı. Yəni, Qarabağda dağıdılan 65 məsciddən biri də Zəngilan məscididir ki, onun da bərpa işi gedir.

Cənab Prezident həm də Zəngilanın logistik əhəmiyyətini qeyd etdi. Bir neçə zolaqlı avtomobil yolları çəkiləcək. Bununla bərabər Zəngilan, Qubadlı, Laçını Qarabağın digər bölgələri ilə birləşdirmək üçün avtomobil yolları çəkilir. Nəzərdə tutulan həm dəmir, həm avtomobil yolu təkcə Naxçıvanla Azərbaycanı deyil, eyni zamanda Azərbaycan üzərindən mal göndərənlərin yüklərinin daşınmasını həyata keçirəcək. Çünki son zamanlar Ələt limanına sifarişlərin sayı çoxalıb və Azərbaycan yük göndərmə qabiliyyətinin artırılması məsələsilə məşğuldur. Həmçinin, Zəngilanın təbiəti imkan verir ki, burada turizm həyata keçirilsin. Bu məqsədlə burada beynəlxalq hava limanı tikilir. Gələcəkdə Zəngilan yalnız aqrar rayon kimi deyil, həm də kənd turizminin inkişaf etdiyi, beynəlxalq nəqliyyat dəhlizinin keçdiyi bir bölgə kimi də gündəmə gələcəkdir”.

*A.Vəli*







# “Azərbaycanın müstəqil, suveren dövlət kimi inkişaf etməsində ulu öndər Heydər Əliyevin müdrik siyasətinin əvəzsiz rolu var”

## *YAP-a üzv qəbul edilmiş nazirlik əməkdaşlarına vəsiqələr təqdim olunub*

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Agentliyində Yeni Azərbaycan Partiyasına (YAP) üzv qəbul edilmiş nazirlik əməkdaşlarına Partiyanın üzvlük vəsiqələri təqdim olunub.**



Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, ölkəmizdə səfərdə olan Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas, Makedoniya Türk Demokratik Partiyasının sədr müavini, həmin ölkənin əmək və sosial siyasət nazirinin müavini Ənvər Hüseyn və başqaları iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-80-ci illərində Azərbaycanda iqtisadi inkişafı, sosial rifah halının ildən-ilə yüksəlməsini təmin etdiyini diqqətə çatdırıb. O, Ulu Öndərin müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi, ölkəmizin uzunmüddətli inkişaf yoluna çıxarılması istiqamətində misilsiz tarixi xidmətlərindən bəhs edib.



Nazir ümummilli lider Heydər Əliyevin müəllifi olduğu, vətəndaş rifahına təminat yaradan sosial inkişaf strategiyasının nailiyyətlərini qeyd edib. Ulu Öndərin uğurlu siyasətinin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsi nəticəsində Azərbaycanın sürətli tərəqqiyə, sosial sahədə mühüm uğurlar qazandığını vurğulayıb.

Ümummilli lider Heydər Əliyevin sədrliyi ilə yaradılan YAP-ın ölkəmizin inkişafında mühüm xidmətlər göstərdiyini qeyd edən nazir bildirib ki, YAP sıralarına qoşulanların sayının daim artması partiyaya olan böyük inam və etimadın təzahürüdür. Son illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemi üzrə daha 900 əməkdaş YAP-a üzv olub. Nazirlik sistemi üzrə YAP üzvü olan əməkdaşların sayı 4000-ə qədərdir.

Sonra çıxış edən Tahir Budaqov ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərindən danışıb. Azərbaycanın müstəqil, suveren dövlət kimi bərqərar olub inkişaf etməsində, dünya birliyində layiqli yer tutmasında ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin, əbədiyaşar ideyalarının əvəzsiz tarixi rolunu vurğulayıb. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin daha uca, yeni zirvələrə yüksəldiyini, böyük qələbələrə imza atdığını qeyd edib.

Makedoniya Türk Demokratik Partiyasının sədri Beycan İlyas Azərbaycanda səfərdə olmaqdan, ölkəmizdəki davamlı inkişafı görməkdən məmnun olduğunu qeyd edib.

Tədbirdə nazirlik sistemində çalışan əməkdaşlara üzvlük vəsiqələri təqdim edilib. Partiyaya üzv qəbul edilən əməkdaşlar YAP-ın prinsiplərinə uyğun olaraq fəaliyyətlərində azərbaycançılıq, dövlətə sədaqət prinsiplərini daim uca tutacaqlarını vurğulayıblar.

Ümumilikdə daha 90 əməkdaşa partiyanın üzvlük vəsiqələri verilib. Tədbir iştirakçıları DOST Agentliyi və 1 saylı DOST Mərkəzinin fəaliyyəti, əhaliyə göstərilən DOST xidmətləri ilə də yaxından tanış olublar.

# Əhməd İsmayılov hücuma məruz qalan jurnalistlə görüşüb

Mayın 10-da Medianın İnkişafı Agentliyində İcraçı direktor Əhməd İsmayılovun jurnalist Aytən Məmmədova ilə görüşü keçirilib. SİA-nın verdiyi məlumata görə, Əhməd İsmayılov jurnalistin hücuma məruz qalması faktının Agentliyin diqqət mərkəzində olduğunu bildirib.



Aytən Məmmədova mayın 8-də Binəqədi rayonu ərazisində, yaşadığı binanın blokunda hücuma məruz qalması ilə bağlı fikirlərini bölüşüb. İcraçı direktor bildirib ki, məsələ ilə bağlı Daxili İşlər Nazirliyi ilə operativ əlaqə saxlanılıb. Qeyd olunub ki, hadisə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin nəzarətindədir və hüquq-mühafizə orqanları tərəfindən müvafiq araşdırma aparıldıqdan, zəruri prosessual tədbirlər görüldükdən sonra hadisəyə hüquqi qiymətin verilməsi təmin ediləcəkdir.

# “Sənəddə Qarabağın kimə aid olduğu aydın şəkildə göstərilib”

## *Hərbi ekspert Ədalət Verdiyevin SİA-ya müsahibəsini təqdim edirik:*



***- Ermənistan müxalifəti bir neçə gündür Baş nazir Nikol Paşinyan əleyhinə mitinq keçirir. Müxaliflər ondan istefa verməyi, Azərbaycan və Türkiyə ilə apardığı sülh danışıqlarını dayandırmağı tələb edirlər. Ermənistan daxilindəki bu gəlişmələrdən gözləntiniz nədir, ümumiyyətlə, durum niyə bu yerə gəlib çıxdı?***

- Ümumiyyətlə, Ermənistan nə edəcəyini bilmir. Problem ondadır ki, xalqın qarşısına çıxıb vəziyyəti başa salacaq bir lider yoxdur. Ermənistanın dərdi Qarabağın əldə getməsidir. Artıq Ermənistan bu müharibəni uduzub və kapitulyasiya haqqında sənəd imzalayıb. Ermənistanda hakimiyyət dəyişsə belə onlar müharibəyə başlaya bilməyəcək. Ermənistanı silah-sursatla təmin edəcək ölkənin özü də hazırda müharibə edir. Yəni, bu heç nəyi dəyişməyəcək. Paşinyan hələ ki, öz tərəfdarlarını ayağa qaldırmağa çalışmır. Yəqin ki, bu mitinqlərin heç bir nəticə verməyəcəyini bilir.

***- Paşinyan müxalifətə cavabında Qarabağın Azərbaycan ərazisi olduğu fikrini yenidən təkrarladı. Eyni zamanda, bunu keçmiş prezident Serj Sarkisyanın da qəbul etdiyini bildirdi. Bəs onun bu mesajını necə anlamalıyıq?***

- Ortada imzalanan sənəd var və bu sənəddə Qarabağın kimə aid olduğu aydın şəkildə göstərilib. Bu qədər keçirilən görüşlərdə və ya imzalanan sənədlərdə Qarabağın Azərbaycana aid olmamasına dair bir kəlmə yoxdur. Biz ümumiyyətlə, bu məsələni müzakirə etmirik. Lakin bizim üçün bitməyən məsələlər də var ki, bunlar sərhəd və sülh müqaviləsi, Zəngəzur dəhlizi, Qarabağ əhalisinin doğma yurdlarına qayıtmasıdır. Belə bir halda yenə də erməni revanşistləri tərəfindən atəşkəs pozulur. Amma bizim də bir səbrimiz var. Bu təxribatların sonu da Fərrux kəndindəki kimi olacaq.

***- Sizcə, regionda sülhün olması kimləri narahat edir?***

- Azərbaycan təkcə Ermənistanla deyil, yeddi cəbhədə yeddi düşmənlə savaşdı. Onlar arasında maliyyə dəstəyi verənlər, erməni diasporu, bəzi Qərb ölkələri və s. var idi. İndi bu qüvvələr sülh məsələsində maraqlı deyillər. Avropa Rusiyanın, Rusiya isə Avropanın nizamlanma prosesindən çəkilməsini istəyir. Hər biri regionda öz nəzarətini bərpa etməyə çalışır. Azərbaycan isə öz maraqları çərçivəsində qısa müddətdə məsələnin həllinə hazırdır. Kimlər ki, 30 ildə Ermənistana bu işğalı davam etdirmək üçün yardımlar etdi, onlar münaqişənin həllini istəmirlər. Çünki onların qoyduğu pul batıb.

***- Paşinyan ölkəsini rus boyunduruğundan çıxara biləcəkmi? Bu yöndə ABŞ və Avropa Birliyindən ona dəstəyin artması da müzakirə mövzusudur. Hətta xarici işlər naziri Arart Mirzoyanın dörd günlük səfər proqramı ilə Vaşinqtona getməsi də diqqətdən yayınmadı.***

- Bu, asan həll olacaq bir məsələ deyil. Paşinyan vəsaiti, maliyyə yardımını Avropadan alır, amma silah dəstəyinin 95%-i Rusiya hesabına formalaşır. Son zamanlarda bir az zəifləsə də, müharibə dövründə kifayət qədər intensiv silah daşıma həyata keçirilirdi. İndi Ermənistanın çıxış yolu yoxdur. Ermənistana başqa heç bir dövlət silah yardımı etməyəcək. Yalnız Rusiya bunu edə bilər, amma indi onun özünün də silah-sursata ehtiyacı var.

**Ləman Əlizadə**

# Xarıbülbül festivalı: Zəfər+Zəfər

**Prezident İlham Əliyev: ”Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən ”Xarıbülbül” musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir”**

Dövlət başçısı 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhərini ölkənin mədəniyyət paytaxtı elan etdi. Bu Sərəncamla ”Vaqif poeziya günləri” və ”Xarıbülbül” festivalı da bərpa olundu. Ötən il may ayının 12 və 13-də Şuşada keçirilən ”Xarıbülbül” musiqi festivalından - 44 günlük Zəfərimizin üzərinə yeni bir Zəfər əlavə edən 2 gündən söhbət açmaq istəyirəm. Keçən il də yazmışdım. Şuşada Cıdır düzündə keçirilən festivalı televiziya vasitəsilə izləyə-izləyə, bir qədər doluxsuna-doluxsuna, çox qürur duya-duya, lap çox fəxr edə-edə yazmışdım.



## 30 ilin yaralarına məlhəm 365 gün

Budur, 365 günü tamam olur 30 illik hicranını vüsal edən Xarıbülbülün. Ötən ilin 12-13 mayında Şuşasına onun adını deyib gələnlərin nəvazişi, Azərbaycan musiqisinin o doğma səsi ilə bir qərinəyədək çiyninə düşmüş başını qaldırdı Xarıbülbül. Onu deyib gəlmişdilər. Onun hüsnünü oxşamağa, yaralı qəlbinə məlhəm olmağa, küskün könlünü almağa gəlmişdilər. 30 il əvvəl hər il adına keçirilən festivallarla ərköyünləşən, elə bu səbəbdən də gözü yollarda qalan Xarıbülbül üçün toplaşmışdı festival iştirakçıları.

Elə mən də həmin 2 günə qayıdıram

Bu yazını ”Qarabağ” şikəstəsinin Şuşanın dağlarına, düzlərinə səpələnən səsini hər daşın, qayanın, torpaqdan boylanan kiçik bir çiçəkdən, otdan tutmuş göydəki buludlara qədər ”ciyərlərinə” çəkdiyini duyaraq yazıram. Səmada qartalın süzməsindəki qüruru, doğma musiqini eşidib Cıdır düzünə üz tutan quşların sevincini duyaraq yazıram.

İkinci Qarabağ müharibəsində şəhid



olan oğullarımız keçir bir-bir gözlərim önündən... Şuşadakı qəhrəmanlıqları, əlbəyaxa döyüşləri xatırlayaraq, ”öldü var, döndü yoxdur!” iddiasını duyaraq yazıram. Sinələri, əl-ayaqları ilə 30 ildə ot basmış, yolu, çığırı itmiş Şuşaya yol açmaqlarından duyğulanaraq yazıram. Yarımçıq qalmış ömürləri, yarımçıq qalmış arzuları, diləkləri duyaraq yazıram... 44 gündə cəbhədəydik, səngərdəydik, evimizdə gözlərimiz yollarda, qulaqlarımız səsdəydi. Dünyanın hər yerindəydik, işdə, məktəbdə, hərəmiz bir yerdəydik. Ürəklərimizdə olan isə yenə də həmişəki idi, harada olmağımızdan asılı olmayaraq eyni idi, eyni arzu: torpaqlarımızın azad olunması. Bu arzu bütün ömürlərdən, arzulardan əziz idi azərbaycanlılar üçün. Ona görə ömürlər yarımçıq qaldı, minlərlə şəhid qurban oldu Qarabağa. Elə Şuşada keçirilən ”Xarıbülbül” musiqi festivalının şəhidlərimizin ruhuna həsr olunmasında məqsəd də bu musiqinin sədaları fonunda Zəfərlə onların ruhunu bir daha müjdələmək, azad etdikləri Qarabağda səslənən musiqi ilə ruhlarını bəzəmək idi.

## O dronlar, bu dronlar



44 gündə Qarabağda dronların göy üzündəki gəzintisi düşməni bir-bir arıtladığı kimi, festivalda səmada görünən dronlar isə Şuşanın füsunkarlığını Azərbaycan musiqisinin əsrarəngizliyi ilə birləşdirib Qarabağa, oradan Azərbaycana yayırdı. Ali Baş Komandanımız, müzəffər sərkərdəmizin, vətənpərvər gənclərin-igidlərin, mərdlərin Zəfər müjdəsini bu dəfə Şuşadan göy üzünə qalxan musiqi anladırdı. Şuşanın ucsuz-bucaqsız dağ-dərələri, sıldırım qayaları bir andaca musiqini udur, sanki yox edirdi. Bu bir həsrətdən doğan aclıqmı, ehtiyacmıydı? Bəli, elədir... Bir qərinəyə yaxın həsrətin bitdiyi andı o an. Doymaq istəyirdi vüsala dağlar, həsrəti bu musiqinin səsi ilə sinəsindən qoparıb atırdı dərələr. Bu musiqi yazın ən gözəl anlarını bəxş edirdi bu yerlərə. 30 ildə heç bahar görməyən, 44 gündə payızı bahar olan ellərə Sanki yaz çiçəkləri bu anı gözləyirmişlər, onların musiqinin ritmi ilə açmalarını duydum. Hər not bir çiçək, hər çiçək bir bahardı. Bu musiqi onların günəşi, suyuydu. 30 ildə doğmayan günəşi, susuzluqdan yanan çiyərlərinə axıb onlara həyat verən su

Goydə dronlar gəzirdi. Bu Zəfər festivalında Xarıbülbülün rəqsini seyr edirdi, hafizəsinə köçürür, buradan dünyaya yayırdı. O dünyaya ki, 30 il susmuşdu. Haqq səsimizə səs verməmişdi. Ədalətə göz yummuşdu. Bu musiqi sükütun simfoniyası idi. Darmadağın edirdi o sükutu. Bütün diqqətləri Şuşaya- festivala, Zəfərin festivalına, Xarıbülbülün həbsdən qurtardığı günə yönəldirdi. Xarıbülbül səsləndirirdi bu simfoniyanı. Bu, Zəfər simfoniyası idi. Adı da tarixi ədalətin bərpası idi. Bu simfoniyanı dinləyən hər kəs öz payını alırdı: utanan utanırdı, uduzan yenidən məğlub olurdu, qürur duyansa elə oradaydı-xarıbülbülün yanında, ətrafında, ondan kilometrlərlə uzaqda, lakin bir ürəkdə, bir döyüntüdə, bir ritmdə

Xarıbülbülün gözlərində yaş gördüm. Doğmalarını görmüşdü, anlayırdım onu. Bu, sevinc yaşı idi, o dolurdu, boşalırdı. Dünəni ilə bu gününün müqayisəsində kədəri atır, sevinci qarşılayırdı. Xarıbülbülün üzü gülürdü. Bu, Üzeyirin, Natəvanın, Vaqifin, Xanın qürbətinin sona çatdığı an üçün idi. 30 ildə dağıdılmış, viranə edilmiş tarixi abidələr, məscidlər, pirlər üçün, həm də onlara yeni həyatın verilməsi üçün idi. Xarıbülbül Prezident İlham Əliyevin çıxışını dinləyirdi: "Biz Şuşanı quracağıq, bərpa edəcəyik, mənfur düşmən isə Şuşanı dağıdırdı. İndi siz - burada olan vətəndaşlar, dostlar gəzəcəksiniz, görəcəksiniz ki, Şuşa hansı dağıntılara məruz qalıb. Amma yenə də deyirəm, biz Şuşamızı, Ağdamımızı, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Laçınımızı, Kəlbəcərimizi qəlbimizdə yaşatmışdıq. Dağıdılmış məscidləri biz bərpa edəcəyik, amma o məscidlər işğal dövründə bizim qəlbimizdə ucaldılmışdı. İndi isə biz burada, Cıdır düzündə - hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə yığışmışıq və bu musiqi bayramını, bu birlik bayramını, bu qayıdış bayramını, bu ləyaqət bayramını qeyd edirik". Dinlədikcə də qürurdan göz yaşlarını saxlaya bilmirdi.

Abidəsi, məscidi, dağı-dərəsi, şairi, şəxsiyyəti, gülü-çiçəyi kimi, uğrunda can qoyan şəhidlərini də anırdı Xarıbülbül. Ağlayırdı, lakin bu göz yaşları kədərdən çox qürur yaşlarına bənzəyirdi. Bunu onun arada bir bayatı pıçıltılarında duyurdum:

Şalımı al bağlaram,
Qara yox, al bağlaram.
Qarabağda minlərimi
Mən qürurdan ağlaram.

Qürur duyuram... Festivaldakı insanlar, bütün Azərbaycan qürur duyur.

### Qürura bax, Şuşadan ətrafa yayılıb Qarabağ boyda olur

Yox, yox, Azərbaycan boyda olur. Buradan dünyaya yayılır. Müharibədən sonrakı musiqi festivalı ilə bu əzəli torpaqların kimə məxsus olduğunu sərgiləyir. 30 il öncəki musiqi festivallarının davamıdır bu. Axı Şuşa festivalların keçirildiyi məkan olub. Burada, Cıdır düzündə erməni necə yallı gedə bilərdi? O yad ayaqlar, o yad nəfəslər, o naməlum musiqi Şuşanın sinəsinə yalnız dağ çəkə bilərdi. Çəkdi də. Ölmək, yox olmaq əlində olsa idi, o yallıdan sonra Şuşa yer üzündən çoxdan silinmiş olardı. Lakin taleyi öz əlində deyildi ki... Yaxşı ki dözdü, dayandı, yolunu gözlədi soydaşlarının. Budur, qayıdıb onlar, qayıdacaqdılar da. Torpağı erməniyə verməyəcəkdilər ki...

Nə gözəl musiqilər səslənir, ilahi... Bu musiqilərlə illər öncə ulu öndərimizin "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir" kimi inamlı fikirləri çınlayır qulaqlarımda. Dövlətimizin başçısı cənab İlham Əliyevin ata nəsihətinin yerinə yetirilməsi ilə bağlı qürurlu cümləleri qarışır bu musiqiyə: Necə böyük inamla, necə böyük sevgi ilə Heydər Əliyev deyirdi ki, biz Şuşaya qayıdacağıq, inanın ki, qayıdacağıq. O, özü inanırdı, bizi də inandırırdı. Bizə də onun inamı, xalqın iradəsi əlavə güc verdi və bu gün biz buradayıq, bu müqəddəs torpaqdayıq. Qeyd etdiyim kimi, bundan sonra bu torpaqlarda Azərbaycan xalqı əbədi yaşayacaq, bundan sonra Qarabağda Azərbaycan muğamı əbədi səslənəcəkdir.

Ardınca, "Şuşa, sən azadsan, Şuşa, biz qayıtmışıq!" kimi bənzərsiz cümlələr qarışıq musiqi Şuşanın səmasından dumanı, çəni çəkir. Günəş doğur bu yurda. Musiqi bayramına ellər sevinir. Dəmir yumruq bu musiqinin təsiri ilə bir daha göylərə qalxır, artıq Şuşanın yalnız səmasını seyr edə bilən yağının gözünün odunu bir daha alır. Burada-Şuşada daha əzəmətli, daha təsirli olur. Bir də ən çox təsirli olan budur:

Əzizim, bizim qala,
Həmişə bizim qala.
Tikmədim özüm qalam
Tikmişəm, izim qala.

44 günlük Zəfərə bərabər 2 günlə Zəfərimizin üstünə bir Zəfər də gəlir. Bu tarixi Zəfərlə hər il yenidən keçiriləcək "Xarıbülbül" musiqi festivalı. Bu Zəfər ruhlu musiqi sədalarına ellər axışıb gələcək. Düşmənin bağrını çatladan Zəfər... Qonşuluqda pusquda durub dinlədikləri, məğlubiyyətlərinin acısını yaşadıqları musiqili Zəfər... Bir andaca təxəyyülümdə hər il musiqi festivallarına yığışan insanların üzündə azad torpaqlarımızın sevinci bərq vurduqca, 30 illik həsrəti vüsal qovub qayalardan sonsuz dərələrin dibinə yuvarlatdıqca, bəli, "bu qala bizim qaladır, həmişə də bizim qaladır",- deyirəm. Bu qalanı yenidən bizimki edən cənab Prezidentimiz və şəhidlərimiz isə Azərbaycan tarixində qala taleli, qala ömürlü şəxsiyyətlərdir: "Tikmədim, özüm qalam, tikmişəm, izim qala" misalı kimi...

***Mətanət MƏMMƏDOVA***



# “Heydər Əliyev və müstəqil Azərbaycan mediasının inkişafı” mövzusunda konfrans keçirilib

***Mayın 10-da Medianın İnkişafı Agentliyinin (MEDİA) və AZƏRTAC-ın birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş ”Heydər Əliyev və müstəqil Azərbaycan mediasının inkişafı” mövzusunda konfrans keçirilib.***

Tədbirdən əvvəl Ulu Öndərin AZƏRTAC-ın binasının foyesindəki abidəsi önünə gül dəstələri qoyulub.

Konfrans Ümummilli Liderin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sonra Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov Ulu Öndərin Azərbaycan dövləti və xalqı qarşısındakı əvəzolunmaz xidmətlərindən danışıb. Bildirib ki, müasir müstəqil Azərbaycanın memarı və qurucusu, dünyamiqyaslı dövlət xadimi, dahi şəxsiyyət, ulu öndər Heydər Əliyev hələ sağlığında xalqımızın qəlbində özünə abidə ucaldıb.












”Ümummilli Liderimizin siyasi irsinin, dövlətçilik fəaliyyətinin tədqiqatçıları yaxşı bilirlər ki, çağdaş dünya tarixində mətbuatın cəmiyyətə təsir gücünü Heydər Əliyev qədər yüksək dəyərləndirən ikinci bir lider olmayıb. Ulu Öndər mətbuata həmişə, hətta sovet dövrünün ciddi senzura şəraitində böyük yaradıcılıq sərbəstliyi və demokratik mühitdə işləmək imkanı yaratmış, fikir və söz azadlığının himayədarı olmuş, mətbuatın nüfuzunun artmasına daim qayğı göstərmişdir”, - deyən Aslan Aslanov bildirib ki, ümummilli lider Heydər Əliyevin AZƏRTAC-ın qarşısında qoyduğu ən əsas tövsiyələrdən biri Azərbaycan reallıqları barədə məlumatların dünyaya çatdırılması, ölkənin qlobal informasiya məkanına çıxışının təmin edilməsi olub. Proqram xarakterli bu tövsiyə 20 ildən çoxdur ki, fəaliyyətimizin prioritet istiqamətlərindən birini təşkil edir.



Otuz il işğal altında saxlanılan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması ilə nəticələnmiş 44 günlük Vətən müharibəsinin Azərbaycan tarixində xüsusi yer tutduğunu diqqətə çatdıran İdarə Heyətinin sədri deyib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə aparılan bu müharibə ölkə mətbuatı, o cümlədən AZƏRTAC üçün də bir sınaq olub. Mətbuatımız bu sınaqdan uğurla, mətinləşərək çıxıb. Vətən müharibəsində qazanılmış Qələbə regionda yeni reallıqlar yaradıb. Müasir dövrümüzdə dövlətimizin informasiya siyasəti də məhz bu reallıqlara və çağırışlara uyğunlaşdırılır. Yeniləşən cəmiyyətimizdə KİV-lərin yerinin və rolunun müəyyənləşdirilməsi, ölkə mediasının modernləşdirilməsi istiqamətində əsaslı islahatlar prosesinə start verilib.

Sonra çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov vurğulayıb ki, medianın fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılması, Azərbaycanda demokratik mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Həmçinin Ulu Öndərin siyasi iradəsi və böyük səyləri nəticəsində Azərbaycanda plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələrin aradan qaldırıldığı tədbir iştirakçılarının diqqətinə çatdırılıb.



Əhməd İsmayılov qeyd edib ki, hazırda öz inkişafının mühüm mərhələsini yaşayan, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etmiş, qalib Azərbaycan Respublikasında iqtisadi potensialın gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunun sürətləndirilməsi, ölkəmizin beynəlxalq nüfuzunun artırılması istiqamətində məqsədyönlü və ardıcıl siyasət həyata keçirilir. Ulu öndər Heydər Əliyevin siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyev media sahəsində müxtəlif xarakterli islahatların reallaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib, bu sahənin daha da inkişafını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. Azərbaycan Prezidentinin modernləşmə kursu, cəmiyyət həyatının bütün sahələrində müşahidə olunan yeniləşmə, informasiyalı cəmiyyətə keçid, ölkəmizin dünya informasiya məkanına daxil olması dövlətin və cəmiyyətin qarşısında yeni vəzifələr qoyub. Azərbaycanda fikir, söz və məlumat azadlığı Prezident İlham Əliyevin siyasi kursunun və qazanılan demokratik nailiyyətlərin mühüm tərkib hissəsidir.

Ulu Öndərin demokratiyanın mühüm prinsiplərindən olan söz və məlumat azadlığına, eləcə də medianın inkişafına diqqət və qayğısından söhbət açan Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov Heydər Əliyevin mətbuata xalqın istək və amallarının, prinsip və ideyalarının ifadə meydanı kimi son dərəcə böyük dəyər verdiyini qeyd edib.

Konfransda çıxış edən TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Heydər Əliyevin müasir tarixdə, həmçinin dünya tarixində misilsiz xidmətləri olduğunu vurğulayaraq, Ulu Öndərlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.

Ümummilli Liderin həyat və fəaliyyətindən, onun Azərbaycan xalqı qarşısındakı xidmətlərindən bəhs edən Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva qeyd edib ki, Heydər Əliyevin şəxsi keyfiyyətləri - əzmi, qətiyyəti, iradəsi, cəsarəti və uzaqgörənliyi onun Lider kimi yetişməsində vacib amillərdən olub. Milli Məclisin deputatı vurğulayıb ki, ulu öndər Heydər Əliyevin həyat yolu müstəqil Azərbaycanın güclənməsində, eləcə də savadlı, peşəkar və xalqını sevən gənclərin yetişməsində mühüm rol oynayıb.

Sonda tanınmış jurnalist Tural Müseyibov ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrindən danışıb.

**Bugünkü güclü, qüdrətli Azərbaycanın mövcudluğu söz yox ki, Azəbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu siyasətinin bəhrəsidir. Məhz Ulu Öndər Heydər Əliyevin inkişafa və tərəqqiyə hesablanan siyasətinin ölkə Preizdenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsilə Azərbaycan dünyanın ən sabit, sakit dövləti olmaqla yanaşı, həm də sosial-iqtisadi cəhətdən də ən inkişaf edən dövlətinə çevrildi. Amma təhlilçilərin, siyasi ekspertlərin də gəldikləri qənaət ondan ibarətdir ki, bugünkü sabitlik adası olan Azərbaycan çətin, ağır dövrlər keçib.**



# TARİXİ ŞƏXSİYYƏTİN YARATDIĞI TARİX

## *Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın inkişaf mərhələsinin başlanğıcı oldu*

Yəni, Dahi Öndərimiz Heydər Əliyev böyük zəhmət, əmək sərf etməklə Azərbaycanımızı o dövrün xaos və anarxiya girdabından, iqtisadi tənəzzülündən xilas edərək xalqın istək və arzularına uyğun olaraq ölkəmizi sivil, demokratik, inkişaf edən yola çıxara bildi. Həqiqət ondan ibarətdir ki, əgər o dövrdə Dahi Öndərimiz Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlməsə idi, bugünkü firavan, güclü dövlət də olmazdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda çıxışı zamanı bildirdi ki, bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi: "Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı Ona müraciət etmişdir. 1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin Sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya Azərbaycan təcavüzkar dövlətdir və Azərbaycan Ermənistana qarşı təcavüz edir. Halbuki bizim torpaqlarımız işğal altına düşürdü".

Mövcud fakt ondan ibarətdir ki, 1991-1993-cü illərdə Azərbaycanın üzləşdiyi ağır problemlər, siyasi, iqtisadi və sosial böhranlar, məhz liderin olmaması səbəbindən baş vermişdi. O dövrdə müstəqillik yollarında ilk addımlarını atan Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Müxtəlif xarici qüvvələrin dəstəyi ilə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkənin müstəqilliyini məhv olmaqdan, xalqı üzləşdiyi bəlalardan xilas etmək üçün düşünülmüş tədbirlər görmək iqtidarında deyildi. Siyasi baxımdan təcrübəsiz, dövlət idarəçiliyində heç bir təsəvvürə malik olmayan hakimiyyət ölkəni ağır bəlalara sürükləyirdi. Bu boşluqdan, idarəetmə pərakəndliyindən istifadə edən məkrli erməni daşnakları Azərbaycanımızın torpaqlarını işğal edirdilər. Mövcud ağrılı problemləri həll etmək əvəznə AXC-Müsavat cütlüyü aralarında kreslo davası aparır, yeraltı yerüstü sərvətlərimizdən geninə boluna talamaq üçün müxtəlif oyunlar qururdular. Bu da ölkədaxili xaos və anarxiyanı daha da dərinləşdirir, xalqın sabaha olan inamını daha da sarsıdırdı. Gəncədən başlayan iyun hadisələri vəziyyəti bir qədər də gərginləşdirdi. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi.

### Xalq dövlətin xilasını Ulu Öndərə müraciətdə gördü

Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütlələri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. Bu məqsədlə xalqımızın milli maraqlar ətrafında birləşmiş sağlam qüvvələri, YAP-ın qızıl fondu hesab edilən 91 ziyalı 1992-ci il oktyabrın 16-da Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". 24 oktyabr 1992-ci ildə ziyalılara cavab məktubunda Ümummilli Lider Heydər Əliyev: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər" deyərək yaradılması nəzərdə tutulan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılığını verir. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli Lider Heydər Əliyevin YAP-ın Sədri seçilməsi Azərbaycanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət idi. O ağır tarixi hadisələr barədə Ulu Öndərimiz Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir. Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

Yeni Azərbaycan Partiyasının 2021-ci il 5 mart tarixində keçirilmiş VII qurultayda YAP-ın Sədri, Azərbaycan Prezidenti İlham Əliyev çıxışında demişdir: "Ulu Öndər Heydər Əliyev ətrafında yaradılmış Yeni Azərbaycan Partiyanın fəaliyyəti ölkədə siyasi sabitliyin təmin olunmasına xidmət etmişdir. Ulu Öndər Heydər Əliyevin siyasi irsi inkişafın təməlində duran əsas ideoloji amildir. Heydər Əliyevin ətrafında yaradılmış partiya qısa müddət ərzində ümumxalq partiyasına çevrilmişdir. Ulu Öndərin öz xalqına olan sadiqliyi və ölkənin gələcəyi ilə bağlı olan mütərəqqi baxışları xalqı onun ətrafında birləşdirdi".

Prezident İlham Əliyev çıxışında onu da bildirmişdir ki, Ulu Öndər Heydər Əliyevin yorulmaz siyasi fəaliyyəti Ona xalqın sevgi və ehtiramını qazandırmışdır: "Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Müsbət dəyişikliklərin əldə olunmasında Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı. Ulu Öndərin siyasi iradəsi və peşəkarlığı müstəqilliyin qorunması və dönməzliyini təmin etmişdir. Ulu Öndərin müstəqilliklə bağlı qətiyyətli addımları bir çox təhdidlərin qarşısını almışdır. Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın tarixində yeni inkişaf mərhələsinin əsasını qoydu. 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkənin böhrandan çıxma prosesi başladı".

### Azərbaycanı sabitlik adasına çevirən LİDER

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan, həm də dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Bu baxımdan, haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur. 15 iyundan Azərbaycanın inkşaf mərhələsinin başlanğıcı oldu. Bu dövrdən xalqın sosial-iqtisadi durumu yaxşılaşmağa, ictimai-siyasi sabitlik təmin olunmağa başladı. Məhz bu baxımdan xalqımız liderinə öz təşəkkürünü bildirmək üçün Ona Ümummilli Lider adını verdi. Ümummilli Lider Heydər Əliyev iqtisadi inkişafın dönməzliyini təmin etmək üçün 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndər Heydər Əliyev iqsadi inkişafı təmin etməklə yanaşı, digər sahələr də də mühüm addımlar atdı, qərarlar imzaladı. 1995-ci ilin noyabrında Dahi Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizin gələcəyinin müəyyənləşdirilməsində mühüm istiqamətlərdən oldu. 1998-ci il avqusun 6-da Ulu Öndər Heydər Əliyevin qərarı ilə Şərqdə ilk dəfə olaraq ölüm hökmünə qoyulan moritorium tamamilə ləğv edildi. Yüksək humanizmə söykənən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş və 2001-ci ilin 25 yanvarında Azərbaycan Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edildi. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan dövlətinin ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaldı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən həmin ilin noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Bu günlərdə Dünya Azərbaycanlılarının 5-ci qurultayının erməni işğalından azad edilən, Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərində keçirilməsi Ulu Öndərimiz Heydər Əliyevin diaspor quruculuğunun, dünya azərbaycanlılarının birliyinin və bərabərliyinin təmin olunması istiqamətində əsasını qoyduğu siyasətinin nəticəsidir. Şuşa qurultayı bir daha Dahi Öndər Heydər Əliyevin ideyalarının sarsılmaz olduğunu göstərdi və nə qədər Azəbaycan xalqı və dövləti var, ideyalarının da yaşayacağını ortaya qoydu.

Yuxarıda qeyd etdiyim kimi, bu gün Azrbaycan bütün sahələrdə inkişaf edir. Çünki Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət xalqın və dövlətin maraqlarına əsaslanır. Ona görə ki, xalq öz Liderinin tövsiyə və məsləhətlərinə, ideyalarına əməl edir. Həm də ona görə ki, Dahi Öndərimizin müdirik siyasətini ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirir. Hələ 2003-cü il prezident seçkiləri ərəfəsində Ulu Öndərimiz Heydər Əliyev demişdir: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Son 18 ildə Azərbaycanın daxili və xarici siyasətdə qazandığı uğurlar bir daha sübut etdi ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursu və Azərbaycan dövlətçiliyi etibarlı əllərdədir. 2018-ci ilin 11 aprel seçkilərindən sonra Azərbaycan daha da güclənib, zənginləşib, hərtərəfli inkişaf yolunda yeni uğurlara imza atıb. 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın azad edilməsi Ali Başa Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti nəticəsində əldə olunub. 44 gün davam edən müharibədə Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Parlaq Qələbəsi ilə başa çatdı. Təbii ki, uğurlarımız və qələbələrimiz hələ qabaqdadır. Yaxın vaxtlarda işğaldan azad edilən ərazilərimizə insanlarımız qayıdacaq və o yerlərə yeni nəfəs, yeni həyat qayıdacaq.

***İ.ƏLİYEV***

# Paytaxt Bakımızda
## "Formula-1" yenidən sürət götürəcək

### Dövlət başçısının Sərəncamı ilə ölkəmizə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilib

Sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən ölkə olaraq da tanınıb. Müxtəlif məzmunlu tədbirlərin keçirilməsi ölkəmizin sabitlik, əminamanlığın hökm sürdüyü diyar olduğunu təsdiqləmiş oldu. İqtisadi inkişafımız da, məhz belə tədbirlərin Azərbaycanda keçirilməsinə geniş imkanlar açıb. Ölkəmizdə kifayət qədər idman yarışları da keçirilib ki, bu da dünyanın idman nəbzinin Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi şəhərdə döyünməsinə səbəb olub. Azərbaycanın inkişafı, möhtəşəm nailiyyətlər ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara və konfranslara ev sahibliyi etməsinə səbəb olub. Paytaxt Bakıda NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının illik sessiyası, IV Bakı Beynəlxalq Humanitar, Gənclər Siyasəti üzrə I Qlobal Forumu, Caz Festivalı, "Eurovision-2012" musiqi yarışması, "Bakı Elm Festivalı-2014", BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu və onlarla belə mühüm əhəmiyyət kəsb edən tədbirlərin təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi və yüksək imici səbəbdir.

Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma müşahidə olunmuş və bu gün də belədir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya Çempionatı, "Baku World Challenge" avtomobil yarışı və Olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbiri, o cümlədən, Dünya və Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırıb. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan "Bakı-2015" Avropa Oyunlarını layiqincə təşkil etməklə, tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurmuşdu. Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma var. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan "Bakı-2015" Avropa Oyunlarını layiqincə təşkil etməklə, tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurmuş oldu. Keçirilən tədbirlər sırasında ölkəmizdə keçirilən və dünyanın diqqətini cəlb edən ən əhəmiyyətli idman tədbirlərindən biri olan "Formula - 1" yarışmasıdır. Azərbaycanın idman tarixində yeni bir səhifə olan "Formula-1" yarım əsrdən artıq tarixində yaddaqalan zamanını yaşayır. 2016-cı ildən başlayararaq, paytaxtımızda keçirilən "Formula-1" yarışlarının yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə hər cür şərait yaradılıb. Azərbaycan növbəti dəfə "Formula - 1" yarışmasına ev sahibliyi edəcək. Dövlət başçısının imzaladığı "2022 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında" Sərəncama əsasən, 2022 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2022-ci il mayın 10-dan iyunun 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala biləcəklər.

Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan, təşkilatçılıq, təhlükəsizlik və iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlər yüksək səviyyədədir. Bu günə qədər keçirilən tədbirlər bir daha göstərir ki, Azərbaycan kütləvi yarışların keçirilməsinə tam hazırdır və yarışlara hazırlıq yüksək səviyyədə həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***






# Turizmin iqtisadiyyatdakı çəkisi
# NƏDİR?

"Hazırda ölkə iqtisadiyyatını gücləndirən əsas faktor yenə də neft olaraq qalır. Sadəcə olaraq müsbət tendensiya ondan ibarətdir ki, qeyri-neft sektoru üzrə canlanmalar gündən-günə daha da artır". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov bildirib.

Onun sözlərinə görə, paralel olaraq da bu artımı vergi və gömrük daxilolmalarında da müşahidə edirik: "Eyni zamanda qeyri-neft ixracının artmasını da müşahidə edirik. Bu artıq 50 faiz ətrafında bir artımda müşahidə olunur. Texnoparkların yaradılması, yeni sənaye məhəllələrinin salınması, sahibkarlığın inkişaf etdirilməsi, kiçik və orta biznesin stimullaşdırılması kimi məsələlər təbii olaraq ölkədə iqtisadiyyatını sürətləndirən əsas faktorlardandır.

Ölkədə turizmi inkişaf etdirmək üçün 2011-ci il "Turizm ili" elan olunduqdan sonra növbəti illər boyu bir çox beynəlxalq və yerli tədbirlər vasitəsilə ölkənin beynəlxalq aləmində tanıdılması ilə bağlı ciddi təbliğat və təşviqat işləri aparıldı. Bu da öz nəticəsini verdi. 2019-cu ildə ölkə üzrə ölkəyə gələn xarici turistlərin sayı 3.2 milyona yaxın bir sayda olmuşdur. Pandemiya səbəbindən isə 4 dəfədən çox azalma baş verdi. İqtisadiyyatın heç bir sahəsində bu cür azalma olmadı. Hazırda 2021-ci ildə təxminən eyni səviyyədə qalmışdır. Yəni ölkədə daxili turizm 2020-ci illə üqayisədə inkişaf etsə də amma xarici turistlərin ölkəyə gəlişində artım baş verməmişdir. Statistika Komitəsinin açıqlamasında da təxminən eyni həddə göstərici qalmışdır. Bunun da əsas səbəbi sərhədlərin bağlı olması idi. Düşünürəm ki, hazırda sərhədlərin açılmasına turizmin inkişafı baxımından böyük ehtiyac var. Quru sərhədlərin açılması ölkədə turizmi inkişaf etdirmək üçün edilməli olan ən başlıca hadisədir.

Rusiya, Türkiyə və Yaxın Şərqdən gələn turistlər bilavasitə quru sərhədlər vasitəsilə ölkəyə daxil olurlar. Bu da çoxluq təşkil etdiyindən bu sərhədlərin açılması olduqca vacibdir. Eyni zamanda otelçilik biznesinin də inkişaf etdirilməsi üçün aşağı ulduzlu otelin tikintisinin təşviq edilməsinə böyük ehtiyac vardır. Çünki hazırda regionlarımızda turizm xidmətlərimiz baha formalaşır. Buna görə də yerlərdə ədalətli qiyməti formalaşdırmaq üçün daha aşağı ulduzlu otellərin təşviq edilməsi lazımdır. Çünki hansısa bir xidmət sahələrinə diqtə şəklində qiymətin aşağı salınması ilə bağlı göstərişin verilməsi bazar qanunlarına ziddir. Buna görə də ən yaxşı vasitə olaraq rəqabət mühitini formalaşdırmaq lazımdır. Məhz bu qiyməti formalaşdırmaq üçün iqtisadi metodu ilə xarici turistlərin ölkəyə gəlməsini təmin etmək lazımdır".

***Səbinə Hüseynli***

## İğtişaşlar Ermənistanın yuvarlandığı uçurumu dərinləşdirəcək

**"Ermənistanda proseslərin qızışmasında səbəb Prezident İlham Əliyevin çıxışlarında prinsipial şəkildə mövqe nümayiş etdirməsi, qarşı tərəfin bu mövqeyi və irəli sürülən sülh gündəliyini qəbul etməsi olub. Lakin avantürist qüvvələrin nəyəsə nail olacağını düşünmürəm". Bu sözləri SİA-ya açıqlamasında politoloq Züriyyə Qarayeva deyib. Onun sözlərinə görə, əvvəla 44 günlük müharibədən sonra bu qüvvələr eyni iğtişaşları törətmişdi: "Nəticə o oldu ki, Paşinyan seçkilərdə 54 faiz səs topladı. Hələ məğlubiyyətin acısını xalqın yenicə yaşadığı vaxtda bu qələbə təmin olunmadısa, indi də olmayacaq. Bu həm də onu göstərir ki, erməni cəmiyyəti də həqiqətləri anlamağa məcbur olub, dövlətlərinin sülhdən başqa yolu olmadığını görə bilir. Digər tərəfdən erməni lobbisi öz təsir gücünü itirib. Bunu biz Fransadakı seçkilərdə sağçı qanadın təmsilçilərinin səs toplaya bilməməsində də gördük. O cümlədən onlara havadarlıq edən güclər artıq Azərbaycanın diktə etdiyi reallıqları qəbul etməyə məcbur edilib. Avropa İttifaqının moderatorluğu ilə keçirilən görüşdə qəbul olunan sülh gündəliyinin məzmunu da bunu deməyə əsas verir. Bir sözlə, iğtişaşlar Ermənistanın yuvarlandığı uçurumu dərinləşdirəcək, hakimiyyət isə məcburən uçurumdan çıxmaq üçün Azərbaycanın diktə etdiyi şərtləri qəbul edəcək".**




***Arzu Qurbanzadə***

# Rus səyyah və jurnalist MDB-nin yay səyahətləri üçün ən yaxşı 5 ölkəsinin adını çəkdi

## *Mixail Kojuxov: Bu ölkələrdə gözəl təbiət var, lakin bu cür səyahətlər üçün infrastruktur zəifdir*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Mixail Kojuxovun adı tamaşaçılara çoxdan tanışdır. Jurnalist, böyük təcrübəyə malik səyyah dünyanın müxtəlif yerlərindən öz rəngarəng proqramlarını lentə alır, həmişə olduğu ölkənin mədəniyyətinə, həyatına qərq olmağa çalışır. Bundan əlavə, Kojuxov Rusiya və MDB ölkələrindən gələn turistlər arasında məşhur olan "Səyahət Klubu"nu təsis edib.**

Mixail Kojuxov "Moskva-Bakı" portalına müsahibəsində klubunun dünyadakı iqtisadi vəziyyətlə bağlı böhrandan necə keçdiyini, yeni proqramlarından, Dağıstana səyahətin niyə dəb halını aldığını və Azərbaycana nə vaxt qayıdacağından danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- İndi turist səfərini planlaşdırmaq asan deyil. Bu il səyahət etmək istəyənlərə nə məsləhət görərdiniz?***

- Qısa səfərlər planlaşdırın. Səyahət klubu bunu edir. Ekskursiya dediyimiz şeyi planlaşdırırıq, düzgün variant qonşu ölkələrə qısa həftə sonu səfərləridir, bu, həmişə tələbat olan bir istiqamətdir.

***- Konkret marşrutların adını çəkə bilərsinizmi?***

- Həqiqətən, yeni heç nə yoxdur. Azərbaycan, Gürcüstan, Ermənistan, Özbəkistan. Qırğızıstanı mənimsəməyə cəhdlər qorxmaqla başlayır, burada gözəl təbiət var, lakin bu cür səyahətlər üçün infrastruktur azdır. Amma Rusiyada cəlbedici nöqtələr var: Uzaq Şərq, Altay, Krasnodar diyarı. Müxtəlif sahələrdə, o cümlədən maliyyə sahəsində qeyri-müəyyənlik hər kəsin həyatında böyük təlatüm yaradır. Heç kim 2-3 aylıq üfüqdə tətil planlaşdırmağa hazır deyil. Baxmayaraq ki, onlar bunu vaxtından əvvəl ediblər.

***- Həvəskar səyahətçi kimi son 6 ayda harada olmusunuz?***

- Seyşel adalarında yelkənli katamaranda səyahət etdim və yeni ildən dərhal sonra Şri-Lankada oldum.

***- Azərbaycanda olmusunuz?***

- Son illərdə Azərbaycana səfər etməmişəm. Çünki tez-tez eyni yerlərə qayıtmağı sevmirəm. Azərbaycanda da nisbətən yaxınlarda olmuşdum. Nəyinsə dəyişilməsi üçün ən azı 5 il keçəndə və növbəti səfərdə yeni bir şey öyrənəndə mənim üçün maraqlı olur. (Gülür.)









***- Yeni yerlərdən söz düşmüşkən. Dağıstan bölgəsi rusiyalılar üçün dəbli məkana çevrilib. Necə düşünürsünüz, bu nə ilə bağlıdır?***

- Dağıstan həqiqətən də son 3 il ərzində dəbli məkana çevrilib. Kimsə mənimlə razılaşmaya bilər, amma inanıram ki, bununla ən birbaşa əlaqəm var. (Gülümsəyir.) Bəli, hələ də sevimli yerlərimdən biridir. Mən ilk gəlişimdə çox təəccüblə öyrəndim ki, Dərbənd, deyək ki, o qədər də Dağıstan şəhəri deyil. Odda çox dadlı ət bişirdikləri üçün. Belə ətlərə ancaq Azərbaycanda rast gəlinir. Və sonra məlum oldu ki, şəhər sakinlərinin böyük bir hissəsini etnik azərbaycanlılar təşkil edir.

***- Tərcümə ilə bağlı yeni işinizdən danışaq. Rus dilinə tərcümə etdiyiniz ispandilli müəllifin kitabı işıq üzü görüb...***

- Bir vaxtlar xarici dil fakültəsini bitirmişəm, ixtisasca tərcüməçiyəm. Tələbəlik illərində jurnalistika ilə məşğul olsam da, tərcüməçi peşəsindən heç vaxt istifadə etməmişdim. Mən hələ də ispan dilini yaxşı bilirəm. Həyat yoldaşım Yelena, "Covid" pandemiyası başlayanda, rus dilinə bir şey tərcümə etməyi təklif etdi və müəllifi özü tapdı. Onun adı Xuan Qabriel Vaskesdir. O, çox məşhurdur, dünyada ən çox tərcümə olunan ispandilli yazıçılardan biridir. Rusiyada isə populyar deyildi.

***- Hansı kitabını tərcümə etmisiniz?***

- Kəskin süjetli sevgi romanı adlanan "Düşən şeylərin səsi" əsəri ilə rastlaşdım, bu, "Medellin karteli"nin yarandığı dövrdə baş verən və bu biznezin insanların həyatına necə təsir etdiyini göstərən romandır. Vaskes çoxlu sayda beynəlxalq mükafatlara malikdir, onun əsərləri 30 dilə tərcümə olunub. Onu Markesin varisi adlandırırlar. Ola bilsin ki, bu qiymətləndirmə həddən artıq qiymətləndirilib, lakin onun obrazlı, parlaq, "Markes dili" var. Roman şəkillər, rənglər, detallarla doludur və tərcümə etmək maraqlı idi. Məsələn, ispan dilində çox zəngin söyüş var, amma orada bunlar nalayiq sözlər sayılmır. Bunu kitabda elə çatdırmağa çalışdım ki, mətni Leninqrad qrupunun mahnılarına çevirməsin... Bilirsiniz, bəzi şeyləri mən bəzən bir neçə gün əzab verən mürəkkəb problem səviyyəsində həll etməli idim, bu sözlərə bir əvəz və ya uyğun şərh tapana qədər.

***- İnternetdə və ya televiziyada layihələriniz necə gedir?***

- Mən bu işə bir nöqtə qoymamışam. Proqramlar bir vaxtlar ictimaiyyət tərəfindən tanınırdı və mən bu tanınmayan bir şeylə çıxış etmək istəyirəm. Ağlıma gələn fikirlər isə ya ödəyə bilməyəcəyim əhəmiyyətli xərcləri əhatə edir, ya da macəra axtarışı səviyyəsindən geri qalır. Format tapmaq çox çətindir, lakin eyni suallara dəfələrlə cavab verməyə olan ictimai şəxslərə eyni sual verməyi üçün növbəti bir müsahibəçi olmaq istəmirəm.

***Tərcümə - Elçin Bayramlı***

# Ermənistanda apokalipsis yaşanacaq: proqnozlar da bunu sübut edir

**İrəvan daim görüntü xarakteri üçün, yəni teoretik şəkildə ötən illər ərzindəki danışıqlar prosesini "dəstəklədiyini" nümayiş etdirib, amma praktiki şəkildə həmin prosesi rədd edib**

Ermənistanda küçə nümayişləri davam edir. Millətçi müxalifətin tərəfdarları Nikol Paşinyanın istefasını tələb edirlər. İctimai rəydəki atmosfer isə baş nazirin və hökumətin rəsmi şəkildə xain elan olunmasına doğru inkişaf edir. Daha dəqiq desək, Ermənistanda sülhün bərqərar olmasını istəyənlər əks qütbə münasibətdə azlıq təşkil edirlər. Yəni belə görünür ki, erməni cəmiyyəti artıq iki hissəyə parçalanıb - Paşinyan tərəfdarlarına və anti-Paşinyan tərəfdarlarına. Etirazçıların düşüncələrinə görə, Paşinyan nəyin bahasına olursa-olsun qovulmalıdır və o cümlədən, Ermənistanda hakimiyyətə iddialı olan müxalifətçilər bəyan edirlər ki, iqtidarı ələ keçirəcəkləri halda ölkələri dost və qeyri-dost ölkələrin siyahısını tərtib edəcək, bundan sonra isə məhz həmin siyahı üzrə siyasətini quracaq.









## Saqatelyan Nikol Paşinyanı devirəcəkləri halda planlarını açıqlayıb

Əslində bəri başdan belə bir nəticə də çıxarmaq olar ki, hakimiyyətə iddialı olan türkofob və anti-sülh xarakterli müxalifət - Robert Koçaryan, Artur Vanetsyan, Serj Sarqsyan, İşxan Saqatelyan kimiləri hələ də anlamırlar ki, onların tələbləri baş tutarsa bu ümumiyyətlə, Ermənistanın tamamilə məhvi anlamını daşıyacaq. Məsələn, gəlin daşnakların lideri İşxan Saqatelyanın nümayiş zamanı irəli sürdüyü tələblərini və şərtlərini , eləcə də vədlərini nəzərdən keçirək. Beləliklə, Saqatelyan Nikol Paşinyanı devirəcəkləri halda planlarını açıqlayıb:

Keçid hökuməti yaradılacaq və burada əsas məqsəd Azərbaycanla Türkiyəyə qarşı müqavimət göstərməkdir.

Prioritet istiqamət Ermənistanın və "artsaxın" təhlükəsizliyini təmin etməkdən, erməni diversantlarını Azərbaycandan geri almaqdan ibarətdir.

"Yeni hökumət" münasibətlərin normallaşdırılması yönündə dəhlizlərin açılmasına imkan verməyəcək və bu istisnadır.

"Yeni hökumət" sərhədlərin delimitasiyasına və demarkasiyasına razılıq verməyəcək.

Türkiyə "ermənilərin soyqırımını" tanımayacagına qədər bu ölkə ilə münasibətlər qurulmayacaq.

Baş nazir sərbəst qərar qəbul etməyəcək və bütün məsələlər təhlükəsizlik şurası ilə məsləhətləşmədən sonra qərarlar veriləcək.

Göründüyü kimi, fakt budur ki, Ermənistanın küçə müxalifəti açıq-aşkar ölkəni uçuruma doğru sürülməsində qərarlıdırlar və əlbəttə ki, məsuliyyətlər də onların üzərinə düşür.

## İndiki resurs bazası Ermənistana müstəqil iqtisadi siyasət yürütməyə imkan vermir

Ancaq o da faktdır ki, Ermənistanın mövcudluğu bütün postsovet dövrü Azərbaycanın torpaqlarını işğal altında saxlaması ilə davam edib və bu respublika onilliklər boyu özünün blokadada olan iqtisadiyyatı, nəqliyyat izolyasiyası ilə barşıb, üstəlik inadkarlığı ilə tükənməz radikal, müharibə çağırışlı ritorikasını önə sürüb, bu vasitə ilə birinci Qarabağ müharibəsinin işğalçılıq nəticələrinə haqq qazandırmağa cəhdlər göstərib.

Bəli, İrəvan daim görüntü xarakteri üçün, yəni teoretik şəkildə ötən illər ərzindəki danışıqlar prosesini "dəstəklədiyini" nümayiş etdirib, amma praktiki şəkildə həmin prosesi rədd edib. Çünki tərəflərin yaxınlaşması işğal altındakı torpaqların geri qaytarılmasına səbəb ola, bununla da separatçıların işğalçılıq statusları boşa uğraya bilərdi.

Sovet İttifaqının dağılması ilk növbədə Ermənistanın iqtisadi vəziyyətinə mənfi təsirlərini göstərdi. Respublikanın ərazisi cəmi 29743 km?-dir, əsasən ucqar dağlıq ərazilərdən ibarət olsa da, yalnız bir düzənliyi var. O cümlədən, sovetlər dövründə Ermənistan SSR Cənubi Qafqazın iqtisadi platformasında heç də öz yerini tutan sənaye nəhəngi hesab olunmurdu. Ölkənin iqtisadiyyat sektoru əsasən dağ-mədən sənayesinin məhsulları, sovet kompüterlərinin komponentlərinin istehsalı, qismən avtomobil sənayesi, eləcə də konyak istehsalı ilə təmsil olunurdu.

Özəlləşdirmə zamanı isə Ermənistan bu ölkəyə miras qalmış bir sıra əmlakları, yəni hər şeyi satmağa üstünlük verdi və buraya dəmir yollarını, elektrik şəbəkələrini, atom və su energetikasını, mis mədənlərini və s. sahələri aid etmək olar.

İndiki resurs bazası isə Ermənistana müstəqil iqtisadi siyasət yürütməyə imkan vermir. Son vaxtlara qədər müxtəlif güc strukturları ilə sıx əlaqələrdə olan yerli oliqarxiya sistemi öz mülkiyyətlərindəki dağ-mədən sənayesinin qalıqlarını, eləcə də torpaq fondunu saxlamağa imkan tapırdı.

Başqa sahələrdə isə qıtlıq və əlverişsizlik get-gedə daha qabarıq fonda görünürdü. Misal üçü, ölkədə ixracın idxaldan çox aşağı səviyyədə olması və Ermənistan coğrafiyasının əkin-biçin üçün əlverişsizliyi, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalında yaşanan problemlər erməni millətçilərinin işğal faktında özlərinə haqq qazandırmalarına onların təbirlərincə desək, "şəraitlər" yaradırdı. Amma paralel olaraq Ermənistan qonşuları ilə əlaqələri itirdi, diplomatik əlaqələri kəsdi və özünü təcrid vəziyyətinə saldı. Belə bir dövrdə Ermənistanın rəhbərlikləri siyasətlərini cəmiyyətin konsolidasiyasına kökləyir, elə sanırdılar ki, hansısa sehrli qüvvə onları çətin vəziyyətdən dartıb-çıxaracaq. Məhz bu xüsusda ölkədə ultramillətçilik ritorikası daha da artır, bu ritotika normal dövlətçilik maraqlarının üzərindən qalın xətlər çəkirdi.

## Radikal və millətçi müxalifət "Ermənistanın dirçəlişi" adı altında küçələrə çıxırsa, deməк ki, onlar yenidən özləri haqqında hansısa mümkünsüz "mifi" yaratmağa çalışırlar

44 günlük müharibə isə əslində qonşularının torpaqlarına göz dikən bəlli siyasi çevrələrin gözlədikləri sehrli məqamı məhv etdi və həmin sehr baş vermədi. Əksinə, Ermənistan məhvinin tam astanasında dayandı və bu gün də dayanmaqda davam edir.

Və əgər bu gün ölkədəki hakimiyyət hələ də hər vəchlə sülh sazişinin imzalanmasında müxtəlif oyunbazlıqlar nümayiş etdirirsə, bu fonda radikal və millətçi müxalifət "Ermənistanın dirçəlişi" adı altında küçələrə çıxırsa, demək ki, onlar yenidən özləri haqqında hansısa mümkünsüz "mifi" yaratmağa çalışırlar. Amma unudurlar ki, sonsuz düşmənçilik və qonşu ərazilərinə iddialar məhvin astanasında dayandıqları ölkələrinə dəhşətli apokalipsis vəziyyətini yaşada bilər. Bu apokalipsis isə 104 il əvvəl tarixi, əzəli Azərbaycan torpaqlarında yaradılmış süni "Ermənistan" adlı ölkənin məntiqi sonluğu ilə başa çatacaq. Görünür, Ermənistandakı məlum qütblər hələ də həmin reallığı dərk edəcək qədər ağla sahib deyillər.

**Rövşən RƏSULOV**

# Heydər Əliyev fenomeninin
## Azərbaycanın müasir tarixində rolu

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.*

***Heydər Əliyevin çox maraqlı və keşməkeşli həyat və fəaliyyəti olub. Onun tərcümeyi-halına nəzər salanda adamı qəribə hisslər bürüyür. Belə böyük, müdrik və fenomenal qabiliyyətə malik şəxsiyyətlə eyni ölkədə yaşamağın, eyni xalqdan olmağınla fəxr edirsən.***

Azərbaycanın ümummilli lideri Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində anadan olub. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alıb. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləyib, 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib. 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləyib, general-mayor rütbəsinə qədər yüksəlib. Həmin illərdə o, Leninqradda xüsusi ali təhsil alıb, 1957-ci ildə isə Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev AKP MK-nın birinci katibi seçilərək respublikanın rəhbəri olub. 1982-ci ilin dekabrında SovİKP MK-nın Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib və SSRİ-nin rəhbərlərindən biri olub. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olub. 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verib.

Heydər Əliyev 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. O, Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşayıb, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilib. O, 1991-1993-cü illərdə Naxçıvan MR Ali Məclisinin sədri, Azərbaycan Ali Soveti sədrinin müavini olub. 1992-ci ildə isə YAP-ın Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilib.

1993-cü ilin may-iyununda ölkədə ictimai-siyasi böhranın yaranması, vətəndaş müharibəsi təhlükəsinin mövcudluğu o zamankı ölkə rəhbərliyini Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur etdi. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq referendumu nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycanın Prezidenti seçildi. 2003-cü il 15 oktyabrda keçirilən prezident seçkilərində Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etdi və namizədliyini Azərbaycanın indiki Prezidenti İlham Əliyevin xeyrinə geri götürdü.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülüb. O, 4 dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilib, 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adını alıb, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunub. Bunlar böyük şəxsiyyətin böyük həyatından kiçik və ümumiləşdirilmiş məqamlar idi.



Bu qədər zəngin karyera dünya siyasətçilərin demək olar ki, heç birinin bioqrafiyasında yoxdur. Heydər Əliyev dünyada yeganə dövlət başçısıdır ki, ölkəsində iki ayrı-ayrı zamanda və quruluşda uzun müddətli rəhbər olub və hər ikisində də öz xalqını çoxsaylı bəlalardan xilas edib, ölkəsini möhkəmləndirib, inkişaf etdirib.

Ulu öndərimizin Azərbaycan xalqına ənböyük xidmətlərindən biri də onun gələcəyimizə verdiyi töhfələrdir. Heydər Əliyevin elmə, təhsilə, mədəniyyətə və sair sahələrə verdiyi önəm öz bəhrələrini verib. Ümummilli liderimiz daim məktəbliləri, tələbələri, ümumiyyətlə yeniyetmə və gəncləri diqqətdə saxlayıb, onların inkişafı üçün əlindən gələni edib.

Bugünkü müstəqil dövlətçiliyimizin üzərində bərqərar olduğu dayaqlarından biri də Azərbaycan gəncliyidir. Gənclərimizin əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında, ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".

Gənclər siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində gənclərin iştirakı, gənclər təşkilatlarına dövlət yardımı, gənc ailələrə dövlət yardımı, gənclərin məşğulluğunun təmin edilməsi, gənclərin sağlamlığının qorunması və fiziki inkişafı, istedadlı gənclərə dövlət qayğısı, gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı" kimi prinsiplər əsas tutulur.

Ulu öndərimiz deyirdi: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik". Müasir Azərbaycanın memarı Heydər Əliyev Azərbaycan gənclərinə inanırdı və O, 1998-ci il ölkə gəncləri ilə görüşündə bunu dilə gətirərək deyirdi: "Əziz övladlar! Sizin kimi gəncləri olan, gələcəyi olan Azərbaycan basılmazdır, sarsılmazdır! Məni hədsiz sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün bəlalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var. Bunlar sizlərsiniz, əziz övladlar!".

Heydər Əliyevin rəhbərliyi ilə təhsil ocaqlarında yüksək standartlara uyğun maddi-texniki bazanın yaradılması, müasir tədris prosesinin tətbiq edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilib. Dövlət vəsaiti hesabına müasir tələblərə cavab verən məktəblər tikilib, tədris müəssisələri yeni avadanlıqlarla, kompüterlərlə təchiz edilib.

Ulu öndərin gənclər siyasətində idmanın və mədəniyyətin inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması mühüm yer tutur. Ölkə başçısının ardıcıl səyləri sayəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkəsinə çevrilib. Respublikamızda beynəlxalq standartlara cavab verən idman komplekslərinin tikintisi bu gün geniş vüsət alıb. Bakıda Dünya və Avropa birinciliklərinin keçirilməsi ölkəmizin idman şöhrətindən, müxtəlif yarışlarda qazanılan çoxsaylı mükafatlar isə gəncliyə qayğıdan, onlar üçün yaradılmış gözəl şəraitdən soraq verir.

1988-1993-cü illərdə cəmiyyətimizdə hökm sürən xaos və anarxiya mədəniyyət və incəsənət sahələrinə də təsir göstərməyə bilməzdi. Həmin illərdə Azərbaycan mədəniyyəti dərin böhran içində idi. Heydər Əliyev millətin taleyi üçün misilsiz əhəmiyyət daşıyan bütün fəaliyyət sahələrinə həmişə ciddi diqqət yetirən bir siyasətçi kimi tezliklə bu vəziyyəti aradan qaldırmaq üçün mühüm tədbirlər gördü. O, hələ respublikaya rəhbərlik etdiyi 70-80-ci illərdə keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarına axın-axın göndərdiyi gənclərin, ziyalıların, 1969-1982-ci illər ərzində respublikamızın təhsil, mədəniyyət, incəsənət sahələri üçün yaratdığı zəngin maddi və mənəvi potensialın səfərbər edilməsi hesabına müstəqil dövlətimizdə mədəniyyətin tənəzzül vəziyyətindən çıxarılması uğrunda fəaliyyətə başladı. Tez bir zamanda cəmiyyətdə elm, təhsil və mədəniyyət xadimlərinin rolu yüksəlməyə başladı. Yaradıcı ziyalıların respublikamızda aparılan quruculuq işlərinin müxtəlif sahələrinə cəlb olunmaları, əvvəlki şan-şöhrətlərinin, hörmət-izzətlərinin onlara qaytarılması mədəniyyətin, incəsənətin inkişafında böyük rol oynadı.

Heydər Əliyev ideologiyasında azərbaycançılıq məfkurəsi bu gün yaradıcılıqla davam etdirilir. Tədris prosesində milli-mənəvi dəyərlərimizin, eləcə də tanınmış dövlət xadimlərinin, sərkərdələrin, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin zəngin həyat yolunun öyrənilməsinə böyük diqqət yetirilir. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü vəzifənin öhtəsindən layiqincə gəlməyə çalışır və bunu bacarır: onların uğuru beynəlxalq konfranslardan, dövlət və hökümət qurumlarından, ölkələrarası debat, intellektual bilik yarışlarından eşidilir. Azərbaycan həqiqətlərini- musiqisini, ədəbiyyatını, rəqsini, folklorunu, mətbəxini, milli-mənəvi dəyərlərini dünyanın müxtəlif ölkələrində təbliğ edən gənclər, bütün səy və bacarığı ilə dövlətçilik ənənələrimizi tanıdaraq, dünya ictimaiyyəti tərəfindən sevilməsinə nail olur. İndi əsas amal bu günə kimi formalaşan gənclər ordusunu heç bir itki vermədən gələcəyə aparmaqdır. Şübhəsiz, bu, belə də olacaq. Çünki Azərbaycan gəncliyi ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sabaha- yeni uğurlara imza atmağa daha yaxındır.

Əsasını Ümummilli Liderimiz Heydər Əliyevin qoyduğu, Azərbaycanı uğurlu gələcəyə aparan siyasət bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Dövlət başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə xüsusi dövlət proqramları təsdiq edib. Dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənc ailələrə kömək göstərilməsi, qaçqın və məcburi köçkün ailələrindən olan yeniyetmə və gənclərin hüquqlarının qorunması, sosial problemlərin həlli, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi dövlət proqramının əsasını təşkil edir.

Ümummilli lider ordumuzun möhkəmləndirilməsi üçün böyük işlər həyata keçirdi və bu işləri onun varisi İlham Əliyev daha böyük miqyasda davam etdirdi. Məhz bu siyasət 2020-ci ilin payızında 2-ci Qarabağ müharibəsi zamanı özünü aydın göstərdi və ordumuz böyük qələbə qazandı və vətənimizin işğal olunmuş hissəsini azad etdi. Bu gün Azərbaycanda gedən proseslər göstərir ki, Heydər Əliyevin əsasını qoyduğu "böyük gələcək" siyasəti artıq öz bəhrələrini verir. O, fenomenal bir şəxsiyyət kimi öz xalqını tarixin sınaqlarından üzüağ çıxardı və Azərbaycan dövlətini məhv olmağa qoymadı. Azərbaycan xalqı onu heç vaxt unutmayacaq.

***Elçin***

ARXİV

Səs
11 may
2022-ci il

# Bu içki sizi xərçəngdən qoruyacaq

**Dünyadakı hər insan gündə ən azı iki fincan qəhvə içsə, yüz minlərlə insanı ölümcül qaraciyər xərçəngindən xilas etmək olar. Avstraliyalı alimlər hesab edir ki, gün ərzində iki və ya üç stəkan qəhvə içmək xərçəngə yoluxma şansını 38%, bu xəstəlikdən ölmə riskini 46% azaldır. Əgər bir gündə dörd stəkan qəhvə içsəniz, bu rəqəmlər müvafiq olaraq 41% və 71% olacaq.**

Saglamolun.az medicina.az-a istinadən bildirir ki, araşdırma qrupu 2016-cı il ərzində qaraciyər xərçənginə yoluxan şəxslərin səhhəti ilə bağlı məlumatları təhlil edib. Həmin il qaraciyər xərçəngindən 240 mindən çox insan ölüb.

Elm adamları bu insanlar arasında qəhvə istehlakına dair statistikanı da tərtib ediblər. Məlum olub ki, gündə iki stəkan qəhvə qəbulu 452 861 xəstənin qaraciyər xərçəngindən ölməsinin qarşısını ala bilərdi. Əgər xəstələr dörd stəkan kofe içsəydilər, onda 723 287 nəfəri xilas etmək olardı. Alimlər hesab edir ki, ölümcül xəstəlikdən qorumaq üçün insanlar gündəlik qida rasionlarına qəhvə əlavə etməlidirlər.



# Ronaldo şərtini açıqladı: yalnız bu halda gedəcək



**“Mançester Yunayted”in portuqaliyalı ulduz futbolçusu Kriştiano Ronaldo klubda qalmağı planlaşdırır. Bu barədə ”The Sun” məlumat yayıb. Portuqaliyalı oyunçu komanda yoldaşlarına bildirib ki, əgər yeni baş məşqçi Erik ten Haq onunla işləməkdə maraqlı olarsa, oranı tərk etməyəcək. 37 yaşlı hücumçunun ”Mançester Yunayted”lə müqaviləsi 2023-cü ilin yayına qədərdir.**

Portuqaliyalı ulduz futbolçu pis mövsümdən sonra klubdan dərhal ayrılmaq istəmir. O, gələn mövsüm komandanı Çempionlar Liqasına qaytarmaq və klubla kubok qazanmaq niyyətindədir. Kriştiano yalnız Ten Haqın planlarına daxil olmayacağı halda gedəcək.

# ABŞ-da insan beyninin çipləşdirilməsinə başlandı



**Avstraliyanın ardından ABŞ-da da insan beyninə xüsusi çiplərin yerləşdirilməsi üzrə sınaqlara start verilib. Bu çiplər sayəsində iflic olan xəstələr sadəcə düşünməklə çox şey edə biləcəklər. Həmçinin, çip vasitəsilə sadəcə düşüncə ilə email göndərmək, onlayn alış-veriş etmək, sosial şəbəkələrdə statuslar yazmaq mümkündür. Bununla belə, çip texnologiyasının inkişafını müsbət qiymətləndirənlərlə yanaşı, ona şübhə ilə yanaşanlar da var.**

Çipin istehsalçısı Avstraliyanın ”Synchron” şirkətidir. Bu ölkədə keçirilən sınaqlarda beyninə çip yerləşdirilən insanlar sadəcə düşünərək tvit yazmağı bacarıblar. Nyu-Yorkdakı sınaqlar uğurlu olarsa, cihazın ABŞ-ın müvafiq qurumları tərəfindən təsdiqlənəcəyi gözlənilir.

*Mənbə: TRT*

# "Barselona" Depayı transferə çıxarır



***”Barselona” futbolçusu Memfis Depayla yolları ayırmağı planlaşdırır. Qol.az ”Sport.es”ə istinadən xəbər verir ki, niderlandlı hücumçu bu yay transferə çıxarılacaq. Kataloniya klubunun Depayın satışından müəyyən məbləğ əldə etmək və yeni oyunçular almaq niyyətində olduğu bildirilib.***

Qeyd edək ki, Niderland millisinin ”Barselona”ya üzvü ötən ilin yayında azad agent kimi keçib. Onun klubu ilə gələn mövsümün sonuna qədər müqaviləsi var.

# Sumqayıtda ölümlə nəticələnən yol qəzası olub

**Sumqayıtda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 8-də saat 3 radələrində Sumqayıtda şəhər sakini R.Məmmədov idarə etdiyi ”Khazar” markalı avtomobili yolun kənarındakı maneəyə vurub.**

Nəticədə avtomobildə olan sərnişin Elxan Səmədov hadisə yerində ölüb, sürücü isə xəstəxanaya yerləşdirilib. Faktla bağlı Sumqayıt Şəhər Polis İdarəsində araşdırma aparılır.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
”ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220